Günel ASLANLI *

# PREZİDENT İLHAM ƏLİYEVİN AZƏRBAYCAN TARİX ELMİ QARŞISINDA XİDMƏTLƏRİ AKADEMİK YAQUB MAHMUDOVUN TƏDQİQATLARINDA

Tarix elmi həm fəlsəfənin ən qədim şaxəsi, həm də daşıdığı siyasi və ideoloji əhəmiyyəti etibarilə müasir dövrdə sosial və humanitar elmlərin içərisində öndər sahədir, desək, yanılmarıq. Milli dövlətlərin ortaya çıxması, milli şüur və milli siyasətin xalqların siyasi həyatında önəmli yer alması ilə tarix elmi ideologiyanın ayrılmaz bir hissəsinə çevrilmişdir.

Müstəqil Azərbaycan Respublikasında Tarix elminin inkişafı üçün elmi, siyasi və hüquqi bazanın yaradılması müstəqilliyini bərpa etmiş dövlətin ideologiyasının tərkib hissəsi olmuşdur: qədim ənənələri olan, XIX və XX yüzilliklərdə isə böyük elmi istiqamətləri formalaşan Azərbaycan tarix elmi 1990-cı illərin əvvəllərində müstəqil inkişaf imkanı əldə etmişdi. Bu imkandan müstəqil Azərbaycan Respublikasının siyasi, ideoloji, sosial və mədəni inkişafı üçün istifadə etmək, Azərbaycan tarixçilərinin fundamental araşdırmalarını dövlətin ideologiyasının formalaşdırılmasına cəlb etmək üçün xüsusi dövlət siyasəti və elm strategiyası zəruri idi.

Lakin Ermənistanın Azərbaycana qarşı elan edilməmiş təcavüzkar müharibəsi, SSRİ-nin dağılması və əvvəlki iqtisadi əlaqələrin qırılması səbəbi ilə ölkədə yaranmış ağır sosial-iqtisadi durum, həmçinin vətəndaş qarşıdurması elmin təşkili, o cümlədən siyasi-ideoloji əhəmiyyət daşıyan tarix elminin inkişafı üçün xüsusi dövlət strategiyasının hazırlanması məsələsini arxa plana keçirmişdi. Obyektiv səbəblərlə yanaşı, 1990-cı illərin başlanğıcında ölkədə tarix elminin yeni şəraitə – müstəqil dövlətin ideologiyasına müvafiq təşkilini ləngidən subyektiv amillər də az deyildi: ölkə rəhbərliyində peşəkar siyasətçilərin olmaması, bu rəhbərlərin ölkədəki hərc-mərcliyin qarşısını almaq bacarığından məhrum olması Azərbaycan elmində də təzadların artması ilə nəticələnmişdi.

İstər Azərbaycan Respublikasının siyasi və sosial-iqtisadi həyatında, istərsə də elmində yaranmış bu ağır durum çox sürmədi: 1993-cü ilin iyununda Azərbaycanda ali hakimiyyətə Ulu Öndər Heydər Əliyevin qayıdışı ilə ölkədə kardinal dəyişikliklər dövrü başlandı. Bu dəyişikliklər birmənalı şəkildə pozitiv xarakter daşımaqla, respublika həyatının bütün sahələrini, o cümlədən tarix elminin milli ideologiyaya xidmət edən bir sahə olaraq inkişafını da əhatə etmiş

* Günel Aslanlı – AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu





oldu. Tarix elmində müstəqil Azərbaycan Respublikası üçün siyasi, ideoloji və təbliğat əhəmiyyətli istiqamətlər yaradıldı və inkişaf etdirildi. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu Azərbaycan tarix elminin və ideologiyasının başlıca mərkəzinə çevrildi .

Bu gün Azərbaycan Respublikası dünyanın sürətlə inkişaf edən ölkəsi, Cənubi Qafqazın lider dövlətidir. "Həyata keçirilən müdrik, uzaqgörən, cəsarətli və Azərbaycan xalqının milli mənafelərinin müdafiə olunmasına yönəlmiş siyasət sayəsində Azərbaycan inkişafın böyük İntibah dövrünü yaşamaqdadır" [33, s.9]. Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi dirçəliş və inkişaf strategiyasının yaradıcılıqla və uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan elmində, o cümlədən Tarix elmində böyük nailiyyətlər əldə etmək mümkün olmuşdur. Bu strategiyanın davamlı olaraq həyata keçirilməsində qloballaşan dünyanın böyük dövlət xadimi İlham Əliyevin müdrik, qətiyyətli və cəsarətli siyasəti həlledici rol oynamışdır [29; 30].

Prezident İlham Əliyevin Azərbaycanın bu günü və gələcəyi üçün böyük əhəmiyyət daşıyan bu uğurlu siyasətinin qaynaqları haqqında akademik Yaqub Mahmudov aşağıdakıları çox böyük dəqiqliklə göstərmişdir: "Prezident İlham Əliyev, hər şeydən əvvəl, çoxlarına nəsib olmayan nadir bir siyasi məktəbin – dahi Heydər Əliyev dövlət idarəçiliyi məktəbinin yetirməsidir, bu məktəbin yeganə məzunudur. Bu məktəbdə o, dahi siyasətçidən məğlubedilməzlik dərsi almış, onun siyasət dünyasının bütün incəliklərinə yiyələnmişdir. Prezident İlham Əliyev Ulu Öndərin yolu ilə gedərək mükəmməl siyasi təhsil almışdır. Onların hər ikisi, həm ata, həm də oğul doğma Vətənin və dünyanın tarixini öyrənməyə xüsusi maraq göstərmiş, dərin və hərtərəfli tarixi biliklərə yiyələnmiş, ali tarix təhsili almışlar: ata – Heydər Əliyev Bakı Dövlət Universitetinin Tarix fakültəsini bitirmiş, oğul – İlham Əliyev isə dünyanın ən nüfuzlu ali təhsil müəssisələrindən biri olan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda təhsil almış, elmi tədqiqat işləri aparmış, dissertasiya müdafiə etmişdir. Beləcə, Azərbaycan xalqına başçılıq edən və dünyanın görkəmli dövlət xadimi olan Prezident İlham Əliyev dərin nəzəri biliklərə və Heydər Əliyevin dövlət idarəçiliyi təcrübəsinə yiyələnmiş, Azərbaycanın tarixini dərindən öyrənmiş, dünya tarixinin həlledici proseslərinin köklərini bilən peşəkar siyasətçidir" [33, s.11-12].

Prezident İlham Əliyevin dərin siyasi bilikləri, dövləti idarəetmə qabiliyyəti və təcrübəsi sayəsində Azərbaycanda elmin inkişafı spontan deyil, xüsusi dövlət strategiyasına tabe etdirilmiş bir siyasət olaraq davam etdirilməkdədir. "Bu gün Azərbaycan tarix elmi İlham Əliyevin konkret tapşırıqları, çağırışları və tövsiyələri əsasında inkişaf edir" [33, s.28]. Bu inkişafın elmi-nəzəri və

ideoloji təməlində isə Heydər Əliyev Dirçəliş Konsepsiyası durur. Ulu Öndər müstəqillik dövrünün bu mükəmməl tarix konsepsiyasını 2001-ci ildəki məşhur Müraciətində doğma xalqına əmanət etmişdir. Heydər Əliyevin 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına Müraciəti Azərbaycan xalqının elmi sərvətləri xəzinəsinə daxil olmuşdur [20]. Heydər Əliyev təfəkkürünün məhsulu olan bu qiymətli əsərdə tariximizin bir çox problemləri ilə bağlı olaraq tədqiqatçılara konkret və prinsipial istiqamət verilir. Böyük dövlət xadimi, hər şeydən əvvəl, bəşəriyyətin yaxın keçmişinə – XX yüzilliyə son dərəcə sərrast və konkret qiymət vermişdir. Özü də bu qiymətləndirmə zamanı ayrı-ayrı siyasi hadisələr, proseslər deyil, müasir dünyamızda insanlığı irəli aparan başlıca amil, daha doğrusu, sürətli elmi-texniki tərəqqi ön plana çəkilir, sonra isə başqa amillər sıralanır. Həm də bu sıralanma zamanı yeni suveren dövlətlərin yaranması kimi mühüm tarixi reallıq xüsusi qeyd olunur [20, s.378-404].

İlham Əliyev bu konsepsiyanı Azərbaycanın və dünyanın sürətlə dəyişən tələblərinə müvafiq təkmilləşdirmişdir və bu gün ardıcıl bir şəkildə həyata keçirməkdədir (ətraflı bax: 2-16). Bu konsepsiya əsasında həyata keçirilən elm siyasəti və inkişaf etdirilən tarix elmi Azərbaycan tarixinin araşdırılmasına və Azərbaycançılıq məfkurəsinin təbliğinə xidmət edir.

Prezident İlham Əliyevin Azərbaycan tarix elmi qarşısındakı xidmətləri tarixşünaslıqda ən geniş və fundamental şəkildə akademik Yaqub Mahmudov tərəfindən araşdırılmışdır. 1990-cı illərin əvvəllərindən başlayaraq Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq siyasətini elmi əsaslarla araşdıran [18; 21-22; 25] akademik Yaqub Mahmudov həm görkəmli tarixçi-alim, həm siyasi xadim, həm də elm təşkilatçısı kimi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin davam etdiyi, ermənilərin Azərbaycanın tarixi torpaqlarına ərazi iddialarının gücləndiyi, antiAzərbaycan təbliğatının genişləndiyi şəraitdə Azərbaycan tarixçilərinin ermənilərin əsassız iddialarını ifşa etməsi işinə səfərbər olunmasında tarix elminin və tarixçilərin rolunu yaxşı başa düşürdü. Azərbaycanın dövlətçilik tarixini müstəqillik dövrünün ideologiyasına uyğun olaraq araşdıran Yaqub Mahmudov bu tarixin araşdırılması üçün güclü bir dövlət siyasətinin əhəmiyyətini dəfələrlə əsərlərində vurğulamışdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətin tarix elminin inkişafına, o cümlədən Tarix İnstitutunun fəaliyyətinin genişləndirilməsinə yönəlmiş böyük qayğının və əməyin nəticəsidir ki, bu gün AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu Azərbaycan tarix elminin başlıca qurumuna, milli ideologiyanın formalaşdığı mərkəzlərdən birinə çevrilmişdir. Tarix elmi qarşısında duran vəzifələrlə bağlı Tarix İnstitutunun direktoru akademik Yaqub Mahmudov tərəfindən irəli sürülmüş və AMEA-nın Rəyasət Heyətinin 18 dekabr 2004-cü il tarixli 211 saylı





qərarı ilə təsdiq edilmiş tarix sahəsində aktual elmi problemlərin tədqiqi, araşdırmaların intensivləşdirilməsi, keyfiyyətinin daha da yüksəldilməsi və sürətinin artırılması mühüm əhəmiyyət kəsb edir və institutun elmi potensialı bu vəzifələrin yerinə yetirilməsinə yönəldilmişdir [33, s.210]. İnstitutun strukturunda əhəmiyyətli dəyişikliklər edilmiş, yeni şöbələr və mərkəzlər təşkil olunmuşdur. "Azərbaycanlıların deportasiyası və soyqırımı" mərkəzi və onun da tərkibində iki şöbə təşkil olunmuşdur. "Heydər Əliyev Elmi-Tədqiqat şöbəsi", "Nəşriyyat işləri şöbəsi", "Tərcümə mərkəzi" və "İnformasiya mərkəzi" və s. yaradılmışdır. "Azərbaycanın qədim tarixi" şöbəsinin rəhbərliyi möhkəmləndirilmiş, "Azərbaycanın orta əsrlər tarixi" şöbəsi akademik Nərgiz Axundovanın rəhbərliyi altında iki bölmədə fəaliyyətini davam etdirməyə başlamışdır. 2004-cü ildən başlayaraq AMEA Tarix İnstitutunda Naxçıvan, İrəvan, Göyçə, Zəngəzur, Borçalı mahallarının, Telavidən başlayaraq Şimal-Qərbi Azərbaycan torpaqlarının, Dərbənd və Samur vadisinin, ən nəhayət, Qarabağın tarixi ilə bağlı hərtərəfli və dərin elmi tədqiqatlara başlanılmışdır.

Tarix İnstitutu XX əsrdə azərbaycanlılara qarşı törədilmiş soyqırımı və deportasiyalar tarixi məsələlərinə böyük diqqət yetirir. Ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı işığında və Prezident İlham Əliyevin konkret tapşırıqları əsasında Tarix İnstitutunun əməkdaşları ölkənin, demək olar ki, bütün kütləvi informasiya vasitələrində çıxışlar etmiş, elmi, elmi-publisistik məqalələr çap etdirmiş, dövlət əhəmiyyətli yığıncaqlarda və elmi konfranslarda, ölkə və dünya miqyaslı toplantılarda məruzələr etmişlər. İnstitutun bu istiqamətdə elmi fəaliyyətində ermənilərin Azərbaycana qarşı ərazi iddiaları, Dağlıq Qarabağda erməni millətçilərinin xalqımıza qarşı yeritdikləri soyqırımı siyasəti, deportasiya, köçkünlük, erməni terroru: sui-qəsd, girovgötürmə, vandalizm, Heydər Əliyevin işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi uğrunda mübarizəsi məsələləri öz əksini tapmışdır. "Azərbaycanlıların deportasiyası və soyqırımı tarixi" və "Qarabağ" şöbələrində əsas diqqət Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin araşdırılmasına, Azərbaycanın ayrı-ayrı bölgələri üzrə soyqırımları və deportasiyalar tarixinə yönəldilmişdir [33, s.213-214].

2007-ci ildə institutun Elmi Şurası Ulu Öndərimiz Heydər Əliyevin ömür yoluna fundamental elmi araşdırmaların həsr olunması barədə qərar qəbul etmişdir. Dahi şəxsiyyətin özündən sonrakı nəsillərə yadigar qoyub getdiyi zəngin irsini tədqiq etmək məqsədilə institutun daxili imkanları hesabına 2009-cu ilin mayında "Heydər Əliyev Elmi Tədqiqat şöbəsi" yaradılmış, 2010-cu ilin sonunda AMEA Rəyasət Heyətinin qərarı ilə, təsdiq olunmuş yeni struktura müvafiq olaraq, bu şöbə "Əliyevşünaslıq" şöbəsi adlandırılmışdır. Heydər Əliyev irsinin

öyrənilməsi istiqamətində aparılan araşdırmalar içərisində "Heydər Əliyev ideyalarının zəfər yürüşü" və 2 cildlik "Heydər Əliyev" monoqrafiyalarını xüsusi qeyd etməliyik [25; 34].

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2009-cu il may ayının 4-də "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nı və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nı təsdiq etmiş, 2009-cu il oktyabr ayının 21-də isə "Elmin İnkişaf Fondu yaradılması haqqında" sərəncam imzalamışdır. Bu sərəncamlar Tarix İnstitutu və onun əməkdaşları tərəfindən böyük razılıqla qarşılanmışdır. İnstitut bu tövsiyələri nəzərə alaraq, Azərbaycanın itirilmiş ərazilərinin tarixini dərindən araşdırmaq üçün mühüm işlər görmüş, Azərbaycan tarixinin bir çox aktual və həllini gözləyən problemlərinin müasir dövrün tələbləri ruhunda araşdırılıb xalqa çatdırılması üçün elmi tədqiqat fəaliyyətində əsaslı dəyişikliklər etmişdir [33, s.223].

Prezident İlham Əliyevin Azərbaycan tarix elminin inkişafı üçün sərf etdiyi əmək, göstərdiyi xidmətləri araşdıran akademik Yaqub Mahmudovun rəhbərliyi altında 2011-ci il dekabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə həsr olunmuş "Tariximizin keşiyində" adlı sənədli televiziya filminin təqdimatı keçirilmişdir. Bu tədqiqatların davamı olaraq isə 2014-cü ildə Yaqub Mahmudovun "İlham Əliyev və Azərbaycan tarix elmi" adlı kitabı çap edilmişdir. Monoqrafiya Prezident İlham Əliyevin tövsiyə, çağırış və tapşırıqlarına əsasən müstəqil Azərbaycan Respublikasında tarix elminin konseptual problemlərinə, bu problemlərin araşdırılması istiqamətində aparılan dövlət siyasətinə və strategiyasına həsr olunmuşdur. Kitabda dövlət başçısının Azərbaycan tarix elminin inkişafına yönəlmiş məqsədyönlü siyasəti tədqiq edilir, Azərbaycan tarixinin obyektiv araşdırılması işinə ölkə rəhbərinin xüsusi qayğı göstərməsi nəticəsində bu mühüm elm sahəsinin Azərbaycan Respublikasının İnkişaf Strategiyasının mühüm tərkib hissəsi olduğu işıqlandırılır. Tədqiqatda respublikada tarix üzrə araşdırmaların mərkəzi olan AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun fəaliyyətinə də diqqət yetirilir (bax: 33).

Akademik Yaqub Mahmudov yuxarıda adı çəkilən fundamental tədqiqat əsərini yazması ilə bağlı aşağıdakıları xüsusi olaraq qeyd etmişdir: "İlham Əliyev və Azərbaycan tarix elmi" kitabının nəşr olunmasını həm də, özümə bir insanlıq borcu, vəfa borcu hesab edirəm. Çünki, Qurucu Prezident çox ağır məqamlarda Tarix İnstitutuna arxa durdu. Sərəncamlar verdi. Tarix İnstitutunu ölkədə əsas elmi tədqiqat mərkəzi adlandırdı. İnstitutun maddi-texniki bazasını gücləndirmək üçün vəsait ayırdı. Tarixçilərin üzünə mükafat qapıları bağlananda





bir sərəncamla 13 nəfər tarixçi Dövlət mükafatına layiq görüldü. Bu sətirlərin müəllifini isə dəfələrlə haqsız zərbələrdən qorudu və sınmağa qoymadı ..." [33, s.7].

Qeyd etmək yerinə düşər ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 2015-ci ilin 9 noyabr tarixində AMEA-nın 70 illik yubileyi ilə bağlı tədbirdəki çıxışı zamanı Tarix İnstitutu tərəfindən nəşr edilən fundamental elmi əsərləri yüksək qiymətləndirərək bildirmişdir: "Azərbaycanın çox zəngin tarixi vardır. Azərbaycan alimləri də, Azərbaycan ictimaiyyəti də bunu yaxşı bilirlər. Biz öz tariximizi, bu reallıqları dünya miqyasında daha da dolğun təqdim etməliyik. Nəyə görə? İlk növbədə, bizi tanısınlar, görsünlər ki, nə qədər zəngin tariximiz var. Digər tərəfdən, bizə qarşı təxribatlar aparılır. Yəni, Azərbaycan tarixini ermənilər təhrif etməyə çalışırlar və diaspor imkanlarından istifadə edərək, bəzi hallarda buna nail olurlar. "Erməni alimləri" xüsusilə regionun, Cənubi Qafqazın tarixi ilə bağlı yalan, uydurma əsasında kitablar dərc edirlər, təqdimatlar keçirirlər. Əlbəttə ki, bizim tariximiz bizim böyük sərvətimizdir. Bizim tariximiz onu göstərir ki, azərbaycanlılar bu torpaqda əsrlər boyu yaşamışlar. Bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində yerləşən kəndlərin, şəhərlərin mütləq əksəriyyətinin adları Azərbaycan mənşəlidir. Budur reallıq. İrəvan xanlığının əhalisinin 70-80 faizi azərbaycanlılar olubdur. Çox şadam ki, mənim tövsiyəmlə İrəvan xanlığı haqqında çox sanballı elmi əsər yaradılıb, bir neçə xarici dilə tərcümə edilibdir. Bu əsərlər faktlar, həqiqətlər üzərində yaradılır" (16a).

Akademik Yaqub Mahmudovun da qeyd etdiyi kimi, "Tarix elmi çox böyük gücə malik bir silahdır, bu silahdan xalqımızın əbədi azadlığının, tarixi ərazi bütövlüyünün və dövlət müstəqilliyinin təmin edilməsi üçün maksimum dərəcədə istifadə olunmalıdır" [33, s.241]. Bu gün Prezident İlham Əliyevin göstərişləri, çağırış və tövsiyələri əsasında tarix elmi sahəsində görülən bütün böyük işlər Azərbaycana və Azərbaycançılığa xidmət edir. Bu siyasətin və strategiyanın elmi əsaslarla araşdırılması isə qəlbi Azərbaycançılıq ruhunda döyünən tarixçi-alim Yaqub Mahmudovun elmi irsinin ən mötəbər nümunəsidir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Heydər Əliyev Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar toplusu / Layihə rəhbəri və elmi red. Yaqub Mahmudlu. 2 cilddə. Bakı, Turxan NPB, 2013. – 640 s.

2. İlham Əliyev. İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. I c. Avqust, 2003 – oktyabr, 2003 /Red.: Ramiz Mehdiyev. Bakı: Azərnəşr. 2008. 424 s.
3. İlham Əliyev. İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. II c. Oktyabr, 2003 – fevral, 2004 /Red.: Ramiz Mehdiyev. Bakı: Azərnəşr. 2009. – 432 s.
4. İlham Əliyev. İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. III c. Fevral, 2004 – aprel, 2004 /Red.: Ramiz Mehdiyev. Bakı: Azərnəşr. 2008. – 416 s.
5. İlham Əliyev. İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. IV c. Aprel, 2004 – iyun, 2004 /Red. Ramiz Mehdiyev. Bakı: Azərnəşr. 2008. – 400 s.
6. İlham Əliyev. İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. V c. İyun, 2004 – avqust, 2004 /Red. Ramiz Mehdiyev. Bakı: Azərnəşr. 2010. – 392 s.
7. İlham Əliyev. İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. VI c. Sentyabr, 2004 – oktyabr, 2004 /Red. Ramiz Mehdiyev. Bakı: Azərnəşr. 2011. – 416 s.
8. İlham Əliyev. İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. VII c. Noyabr, 2004 – yanvar, 2005 /Red. Ramiz Mehdiyev. Bakı: Azərnəşr. 2011. – 408 s.
9. İlham Əliyev. İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. VIII c. Yanvar, 2005 – mart, 2005 /Red. Ramiz Mehdiyev. Bakı: Azərnəşr. 2011. – 408 s.
10. İlham Əliyev. İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. IX c. Mart, 2005 – may 2005, /Red. Ramiz Mehdiyev. Bakı: Azərnəşr. 2012. – 408 s.
11. İlham Əliyev. İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. X c. May, 2005 – iyun 2005 /Red. Ramiz Mehdiyev. Bakı: Azərnəşr. 2012. – 408 s.
12. İlham Əliyev. İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. XI c. İyul, 2005 – avqust, 2005 /Red. Ramiz Mehdiyev. Bakı: Azərnəşr. 2012. – 408 s.
13. İlham Əliyev. İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. XII c. Avqust, 2005 – sentyabr, 2005 /Red. Ramiz Mehdiyev. Bakı: Azərnəşr. 2013. – 400 s.
14. İlham Əliyev. İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. XIII c. Sentyabr 2005 – oktyabr 2005 /Red. Ramiz Mehdiyev. Bakı: Azərnəşr. 2013. – 408 s.
15. İlham Əliyev. İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. XIV c. Oktyabr, 2005 – dekabr, 2005 /Red. Ramiz Mehdiyev. Bakı: Azərnəşr. 2013. – 400 s.





16. İlham Əliyev. İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. XV c. Dekabr, 2005 – mart, 2006 /Red. Ramiz Mehdiyev. Bakı: Azərnəşr. 2014. – 384 s.
16a. İlham Əliyev AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda iştirak edib // https://president.az/articles/16703 (09 noyabr 2015)
17. Mahmudov Y.M. Ata yurdumuzun Atatürkü // «Dirçəliş. XXI əsr» jurnalı, Bakı, iyun 2002-ci il, № 52, s.46–54.
18. Mahmudov Y.M. Ata yurdumuzun Atatürkünə // «Azərbaycan» qəzeti, 2003, 14 dekabr; «Respublika» qəzeti, 2003, 14 dekabr; «Xalq qəzeti» qəzeti, 2003, 14 dekabr; "Səs" qəzeti, 2003, 14 dekabr.
19. Mahmudov Y.M. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il 12 yanvar tarixli Sərəncamına əsasən latın qrafikası ilə nəşr olunmuş kitabların təqdimat mərasimində çıxış //Azərbaycan, 2004, 10 dekabr.
20. Mahmudov Y.M. Azərbaycan tarixinə Heydər Əliyev baxışı və ya xalqımızın Milli dirçəliş konsepsiyası (bir müraciətin hikməti) // Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi. – Bakı, 2005, s. 378–404.
21. Mahmudov Y.M. Əliyev Heydər // AXCE. c.I. – s. 341–354.
22. Mahmudov Y.M. Əliyev Heydər // NE. c.I. – s. 170–177.
23. Mahmudov Y.M. Əliyev İlham // AXCE. c.I. – s. 354–358.
24. Mahmudov Y.M. Əliyev İlham // NE. c.I. – s. 179–182.
25. Mahmudov Y.M. Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı, "Təhsil", 2011. – 608 s.
26. Mahmudov Y.M. İlham Əliyev – Azərbaycan dövlətçiliyinin parlaq gələcəyi // Gülüstan, 2003, № 2 (Xüsusi buraxılış) – s. 3-4.
27. Mahmudov Y.M. İlham Əliyev – Dünya səviyyəsində ucalmış müasir siyasətçi // Xankişiyev Aslan, Mehdiyev Sübut. Diplomatiya və iqtisadiyyat. Bakı, 2003 – s.7-14.
28. Mahmudov Y.M. İlham Əliyev – Dünya səviyyəsinə ucalmış müasir siyasətçi // «Azərbaycan» qəzeti, 2003, 26 yanvar.
29. Mahmudov Y.M. İlham Əliyev – Qloballaşan dünyanın görkəmli dövlət xadimi // «Xalq» qəzeti, 2004, 15 oktyabr; «Bakı» qəzeti, 2004, 31 oktyabr.
30. Mahmudov Y.M. İlham Əliyev – qloballaşan dünyanın böyük dövlət xadimi // İlham Əliyev. 8 il hakimiyyətdə. Bakı, Şərq-Qərb, 2011 – s.25–44
31. Mahmudov Y.M. İlham Əliyev – Siyasət dünyamızın gələcəyi // «Dirçəliş–XXI əsr» jurnalı, 2003, № 59 – s.98-103; Sara Xatun, 2003, № 3 – s.12-13.
32. Mahmudov Y.M. İlham Əliyev – Yeni Azərbaycanın lideri // Səlimxanlı Dəyanət. Diplomatiyadan siyasi olimpə qədər yol. Bu yol İlham Əliyevin yoludur. Bakı: Əbilov, Zeynalov və oğulları, 2003. – s. 4-4.
33. Mahmudov Y.M. İlham Əliyev və Azərbaycan tarix elmi. Bakı: Turxan, 2014 – 268 s.
34. Махмудов Я.М.Победное шествие идей Гейдара Алиева. Баку: "Тахсил", 2012.